İPƏK YOLU, No.2, 2024, səh.84-90
https://doi.org/10.30546/1810-911X.2024.2.010

# SAHİBKARLIQ SUBYEKTLƏRİNƏ XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN PERSPEKTİVLƏRİ

**Q.S. Süleymanov, N.N. Abdullayeva, T.Ə. Şeydai, Z.H. Səfərli**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Bakı, Azərbaycan
e-mail: suleymanov.q.s@gmail.com

**Xülasə.** Məqalədə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Ölkə Prezidentinin Sərəncamına və respublikanın strateji inkişaf planına əsaslanaraq sahibkarlıq subyektlərinin davamlı və dayanıqlı iqtisadi inkişafının tənzimlənməsi mexanizmləri tədqiq edilir. Bu məqsədlə məqalədə sahibkarlıq subyektlərinin fəaliyyət növləri və onların makroiqtisadi göstəriciləri təhlil olunur. Bununla yanaşı məqalədə ölkə iqtisadiyyatına xarici və daxili investisiya qoyuluşunun dinamikası, sahibkarlıq subyektlərinə xarici investisiyaların cəlb edilməsinin mövcud iqtisadi mexanizmləri qiymətləndirilir.

**Açar sözlər:** ÜDM, xarici investisiya, sahibkarlıq subyektləri, iqtisadi artım, sosial-iqtisadi inkişaf.

## PERSPECTIVES OF ATTRACTING FOREIGN INVESTMENTS TO ENTREPRENEURIAL SUBJECTS

**G.S. Suleymanov, N.N. Abdullayeva, T.A. Sheydai, Z.H. Safarli**
*Azerbaijan State Oil and Industry University (ASOIU), Baku, Azerbaijan*

**Abstract.** In the paper, based on the Decree of the President of the country on declaring 2024 "the year of solidarity for the sake of the green world" and the strategic development plan of the republic, the mechanisms for regulating the sustainable and sustainable economic development of business entities are studied. For this purpose, the article analyzes the activities of business entities and their macroeconomic indicators. At the same time, the article evaluates the dynamics of foreign and domestic investment in the country's economy, the existing economic mechanisms of attracting foreign investments to business entities.
**Keywords:** GDP, foreign investment, business entities, economic growth, socio-economic development.

## ПЕРСПЕКТИВЫ ПРИВЛЕЧЕНИЯ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В СУБЪЕКТЫ ПРЕДПРИНИМАТЕЛЬСТВА

**Г.С. Сулейманов, Н.Н. Абдуллаева, Т.А. Шейдай, З.Х. Сафарли**
*Азербайджанский Государственный Университет Нефти и Промышленности, Баку, Азербайджан*

**Резюме.** В статье на основе Указа Президента об объявлении 2024 года «Годом солидарности зеленого мира» и стратегического плана развития республики исследуются механизмы регулирования непрерывного и устойчивого экономического развития субъектов предпринимательства. Для этого в статье анализируется деятельность субъектов предпринимательства и их макроэкономические показатели. При этом в статье оценивается динамика иностранных и внутренних инвестиций в экономику страны, существующие экономические механизмы привлечения иностранных инвестиций в субъекты предпринимательства.
**Ключевые слова:** ВВП, иностранные инвестиции, субъекты хозяйствования, экономический рост, социально-экономическое развитие.

## 1. Giriş

Qloballaşan müasir dünyada sahibkarlıq subyektlərinin mövcudluğu və onun tənzimlənməsi hər bir ölkə iqtisadiyyatının “lokomativ”i, yəni iqtisadiyyatın əsas hərəkətverici qüvvəsidir. Məhz bu aktuallıqdan irəli gələrək Azərbaycanın da strateji inkişafı sahibkarlıq subyeklərinin necə təşkili və idarə edilməsindən birbaşa asılıdır. Digər tərəfdən isə sahibkarlıq

subyektlərinin inkişafı ölkədə: az investisiya ilə daha çox yeni iş yerlərinin açılmasına, ölkədə məşğulluq probleminin həllinə, istehlakın genişləməsinə, ümumi daxili məhsulun artmasına, yerli xammal ehtiyatlarının istifadə edilməsinə, məhsul və xidmət müxtəlifliyi və bolluğuna, regionlararası tarazlı iqtisadi inkişafa töhfə verərək gəlir bölgüsündəki ədalətsizliyin minimum səviyyəyə endirilməsinə, məhsuldarlığın artmasına, yeniliklərə əsaslanan istehsalın inkişafının təmin edilməsinə, ixrac potensialının artmasına, rəqabət mühitinin formalaşmasına, əhalinin maddi vəziyyətinin, rifahının və sosial-mənəvi səviyyəsinin yüksəldilməsinə və s. təsir göstərir.

Bu aktuallıqdan irəli gələrək Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin davamlı və dayanıqlı inkişaf etdirilməsi istiqamətində qanunlar, sərəncamlar və proqramlar işlənilib hazırlanmışdır.

## 2. Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri

Ölkədə sahibkarlıq fəaliyyətinin yüksəldilməsi istiqamətində aparılmış innovativ iqtisadi islahatların nəticəsidir ki, ölkədə 2023-cü ilin yanvar-iyul aylarında 70372,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7% çox ümumi daxili məhsul istehsal olunmuşdur. Eyni zamanda iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,2% azalmış, qeyri neft-qaz sektorunda isə 3,4% artmışdır. ÜDM istehsalının 42,8%-i sənaye, 9,4%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,1%-i nəqliyyat və anbar təsərrüfatı, 6,0%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,9%-i tikinti, 2,3%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6%-i informasiya və rabitə sahələrinin, 17,7%-i isə digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,2%-ni təşkil etmişdir [4; 5].

Yuxarıda göstərilmiş makroiqtisadi göstəricilərin formalaşmasında sahibkarlıq subyektlərinin ölçüləri və fəaliyyət növləri xüsusi çəkiyə malikdir (Cədvəl 1).

2022-ci il üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri aşağıdakı cədvəldə verilib:

**Cədvəl 1.** 2022-ci illər üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri

| **Göstəricilər** | **2022** | | | |
|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | |
| | | **Mikro** | **Kiçik** | **Orta** |
| **Yaradılmış əlavə dəyər*, milyon manat** | 17 170,4 7 | 091,9 2 | 796,1 7 | 282,4 |
| **İşçilərin sayı, min nəfər** | 370,1 | 42,4 | 104,8 | 222,9 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | 707,9 | 450,8 | 575,6 | 843,0 |
| **Əsas kapitala investisiyalar, milyon manat** | 2 827,1 | 857,1 | 955,1 | 1014,9 |
| **Fəaliyyətdə olan sahibkarlıq subyektləri** | 377842 | 366944 | 7760 | 3138 |

Azərbaycanda qeyri-neft sektoru üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payına gəldikdə 2022-ci il üzrə olan göstəriciləri Cədvəl 2-də verilib [7]:

**Cədvəl 2.** Azərbaycanda qeyri-neft sektoru üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı (2022-ci il üzrə)

| Göstəricilər | 2022 | | | |
|---|---|---|---|---|
| | Cəmi | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta |
| **Yaradılmış əlavə dəyər %** | 27,2 | 11,5 | 4,5 | 11,2 |
| **İşçilərin sayı %** | 43,1 | 5,0 | 12,2 | 25,9 |
| **Əsas kapitala investisiyalar %** | 22,8 | 6,9 | 7,7 | 8,2 |
| **Fəaliyyətdə olan sahibkarlıq subyektləri %** | 99,6 | 96,8 | 2,0 | 0,8 |

## 3. Azərbaycanda investisiya qoyuluşunda mövcud vəziyyət: daxili və xarici investisiyalar və onların təsnifatı

Azərbaycanın statistik göstəricilərinə əsalanaraq qeyri-neft sektoru üzrə mikro, kiçik və makro sahibkarlıq subyektlərinin əsas kapitala yönəldilmiş investisiyalarda payı (2021 və 2022-ci illərdə) Diaqram 1-də verilib [2].

Diaqramdan göründüyü kimi, 2021-ci ildə mikro sahibkarlıq subyeklərinin kapitala yönəldilmiş investisiya payı (15.5%) 2022-ci ildən (6.9%) təqribən 2 dəfə daha çox olmuşdur [3]. Kiçik sahibkarlıq subyektləri 2021-ci ildə (8.1%) və 2022-ci ildə (7.7%) az bir fərqlə demək olar stabil qalıb. Orta sahibkarlıq subyektlərində isə 2021-ci ilə nisbətdə (7.2%) 2022-ci ildə (8.2%) artım müşahidə edilib.




**Diaqram 1.** Qeyri-neft sektoru üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas kapitala yönəldilmiş investisiyalarda payı (2021 və 2022-ci illərdə)

MKO sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü Diaqram 2-də verilib:




| | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Tikinti | Nəqliyyat və anbar təsərrüfatı | İnformasiya və rabitə | Təhsil | Sənaye | Ticarət; nəqliyyat vasitələrinin təmiri | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | Digər sahələr |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| % | 30 | 11,4 | 7,8 | 4,2 | 3,50 | 12,6 | 2,9 | 6,5 | 2,4 | 1,9 | 16,8 |

**Diaqram 2.** MKO sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (faizlə)

Son illərdə MKO sahibkarlıq subyekti olan müəssisələrdə muzdla işləyən qadın və kişilərin xüsusi çəkisinə gəldikdə onu aşağıdakı Diaqramda 3-də aydın görmək olar [1]:




**Diaqram 3.** 2022-ci ildə MKO sahibkarlıq subyekti olan müəssisələrdə muzdla işləyəndə qadın və kişilərin xüsusi çəkisi (faizlə)

Belə ki, ötən il muzdlu işçilərin 5,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 22,5%-i sənaye, 14,7%-i tikinti, 16,7%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 40,8%-i isə xidmət sahələrində çalışmışlar (Diaqram 4).




**Diaqram 4.** İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ehtiyatları % ilə

Yuxarıdakı diaqramdan da göründüyü kimi, iqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin ehtiyatları kənd təsərrüfatında 57.1%, sənayedə 17%, tikintidə 29.2%, ticarətdə 4.5%, nəqliyyat və anbar təsərrüfatında 44.2%, informasiya və rabitədə 46.7%, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 62.3%, təhsil sahəsində 41.5%, əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi 65.7% və digər sahələr 75% təşkil edir (Diaqram 4).

Ölkədə aparılan iqtisadi islahatların nəticəsidir ki, ölkə iqtisadiyyatına investisiya qoyuluşunun dinamikası artma istiqamətindədir (Diaqram 5).




**Diaqram 5.** İqtisadiyyata yönəldilən investisiyalar

Yuxarıdakı diaqramdan da göründüyü kimi iqtisadiyyata yönləndirilən investisiyalar 2010-cu ildən 2022-ci ilə qədər həm xarici, həm daxili investisiyalar 2 dəfə artmışdır.




**Diaqram 6.** Xarici investisiyalar (milyon ABŞ dolları)

2010-cu ildən 2022-ci ilə qədər xarici investisiyada bəzi sahələrdə yüksəliş, bəzilərində isə enişlər müşahidə edilir. Belə ki, maliyyə sahəsinə yatırılan investisiya 2010-cu il ilə 2022-ci il nisbəti böyükdür, təxminən 10 dəfə azalma müşahidə edilib. Neft sektorunda investisiya yatırımı illər üzrə stabil qalıb, yalnız 2015-ci ildə kəskin artım müşahidə edilib. Qeyri-neft sektoruna gəldikdə, burada gözlə görünən artım müşahidə edilir [6].

Bütün bu və ya digər təhlilləri qiymətləndirərək, sahibkarlıq subyeklərinə xarici investisiya qoyuluşun davamlı və dayanıqlı olması üçün aşağıdakı əsas hədəflərin inkişaf etdirilməsini məqsədəuyğun hesab etmək olar.

**Nəticə və təkliflər.** Yaxın perspektivdə Azərbaycanda sahibkarlıq fəaliyyətinin dərinləşdirilməsi, kiçik, orta və iri sahibkarlıq subyeklərinin yaradılması əsas hədəflər kimi diqqət çəkir. Bu proseslərdə sahibkarlıq fəaliyyətinin daha səmərəli təşkili, onun rolunun gücləndirilməsi və obyektiv şəkildə qiymətləndirilməsi üçün bir sıra tədbirlərə daha çox diqqət yetirilməsini vacib hesab edirik:

a) Müasir dövrdə istehsal ilə məşğul olan sahibkarlıq subyektlərinin imkanlarının artırılması istiqamətində tədbirlərdə özəl sektor subyektlərinin inkişafına daha geniş yer verilməli və bununla bağlı dövlət tərəfindən zəruri tədbirlər görülməli, dövlət dəstəyi mexanizmləri işlənməli və tətbiq olunmalıdır;

b) Sahibkarlığın inkişafının təmin edilməsi məqsədilə prioritet fəaliyyət istiqamətləri müəyyənləşdirilməli, müasir texnologiyalar əsaslı, rəqabət qabiliyyətli özəl müəssisələrin şəbəkəsinin yaradılması istiqamətində ciddi addımlar atılmalıdır;

c) İstehsal olunan məhsulların keyfiyyətinin yüksəlməsinə səbəb olacaq müəssisələrdə texniki avadanlıqların təkmilləşdirilməsinin və müasirləşdirilməsinin vacibliyi xüsusi diqqət mərkəzində saxlanılmalıdır;

d) Sahibkarlıq fəaliyyətinin inkişafı dövlət tənzimlənməsi səviyyəsindən asılıdır, bunun üçün sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi məqsədilə sistemli, ardıcıl təsirli tədbirlərin görülməsi təmin edilməlidir;

e) Sahibkarlığın inkişafı problemlərinin həlli üçün regionlararası əməkdaşlığın səmərəli təşkili tədbirlərinə ehtiyac vardır;

f) İşğaldan azad olmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin tənzimlənməsinə və stimullaşdırılmasına fərqli yanaşmalar təmin olunmalı, özəl investisiyaların cəlbi xüsusi olaraq stimullaşdırılmalıdır.

## Ədəbiyyat

1. Adalat J.M, Nazim O.H. (2014), Competitive environment is the main factor for integration into the world economy. Journal of Economic Sciences: Theory & Practice, Vol.71, No.2, 5-20.
2. Krugman P.R., Obstfeld M., Melitz M.J. (2012), International economics. Theory & Polycy, 9th edition. England, 736.
3. Marshall A. (1997), Principles of Economics, 1890-1891. Prometheus Books, 319.

4. Məmmədov İ.N. (2012), Qeyri-neft sektorunun inkişaf istiqamətləri. Bakı: Apastrof, 524.
5. Məmmədova S.M., Əliyev Ə.İ. (2019), Azərbaycanın neft-qaz sənayesinin iqtisadi inkişaf perspektivləri. Audit, No.2, Cild 24, 83-95.
6. Болатханова З.А., Сыздыков Е.К. (2018, June), Государственная поддержка развития предпринимательства в республике Казахстан. International Journal of Innovative Technologies in Economy, Vol.5, No.17, 30-35.
7. Шагирова Г.К., Избасарова Л.Б., Имашова Ж.О. (2018), Государственная поддержка и регулирование предпринимательской деятельности. Экономика и Эффективность Организации Производства, No.28, 24-27.